PRİZMA

# Ötən il 333 müəllifin 568 əsəri qeydiyyatdan keçirilib

## KAMRAN İMANOV: "ƏQLİ MÜLKİYYƏT AGENTLİYİNƏ İXTİRAYA DAİR 171 İDDİA SƏNƏDİ DAXİL OLUB"



**ÖTƏN** il 333 müəllifin 568 əsəri qeydiyyatdan keçirilib və əsərin qeydiyyatı haqqında 574 şəhadətnamə verilib". Bunu Əqli Mülkiyyət Agentliyin İdarə Heyətinin sədri Kamran İmanov deyib. O qeyd edib ki, "Elektron xidmət" bölməsi vasitəsi ilə müəlliflərin 21 müraciəti əsasında 16 əsər qeydiyyatdan keçirilib və əsərin qeydiyyatı haqqında 16 şəhadətnamə verilib: "Bundan başqa, keçən il 15 müqavilə qeydiyyatdan keçirilib. Əsərlərin rəsmi qeydiyyatının tətbiq edildiyi 1996-ci ildən 2019-cu ilin 1 yanvar tarixinədək agentlikdə ümumilikdə 12122 əsəri və əlaqəli hüquqların obyektləri, o cümlədən "Elektron xidmət" bölməsi vasitəsilə 97 müəllifin 193 əsəri qeydiyyatdan keçirilib".

K.İmanov əlavə ki, ÜDM-də müəllif hüququna əsaslanan neqativ sənayenin payı artıb: "Son 10 ildə ölkənin ÜDM-də müəlliflik hüququna əsaslanan neqativ sənayenin payı 2007-ci ildə 3,3 faizdən 2018-ci ilin 1 yanvarında olan vəziyyətə görə 5,1 faizə çatıb və hazırda inkişaf etmiş ölkələr səviyyəsindədir. 2017-ci ildə Azərbaycanda müəlliflik hüququna əsaslanan sahələrdə istehsalın həcmi 3549,1 mln. manat təşkil edib".

Onun sözlərinə görə, ötən il əqli mülkiyyət hüquqları obyektləri barəsində daxil olmuş iddia sənədlərinin qanunvericilikdə müəyyən edilmiş qaydada ekspertizası və əqli mülkiyyət hüquqları obyektlərinin dövlət qeydiyyatına dair Əqli Mülkiyyət Agentliyinə ixtiraya dair 171, faydalı modelə dair 41 iddia sənədi, 16 beynəlxalq iddia sənədi (PCT) və 39 Avrasiya iddia sənədi daxil olub. Qeyd olunub ki, iddia sənədlərinin ekspertizası 20 Avrasiya iddia sənədi, 14 PCT iddia sənədi, 145 müsbət nəticə haqqında nəticəsində bildiriş, 53 ilkin ekspertiza sorğusu, 5 iddia sənədi üzrə kargüzarlığın dayandırılması haqqında bildiriş, baxılmaqdan imtina haqqında 2 bildiriş, müxtəlif növ 14 bildiriş göndərilib, 182 axtarış aparılıb.

Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair Madrid sazişi və ona dair protokol çərçivəsində daxil olan bildirişlərin sayı 2639 olub. Hesabat dövründə 3041 iddia sənədi üzərində ekspertiza aparılıb. Onlardan 214 əmtəə nişanının qeydiyyatına dair ilkin imtina qərarları tərtib edilərək ÜƏMT-yə göndərilib. Yerli iddiaçılar tərəfindən əmtəə nişanlarının beynəlxalq qeydiyyatına dair 8 əmtəə iddia sənədi ilə müraciət daxil olub. Onlardan 4 əmtəə nişanının ilkin ekspertizası aparıldıqdan sonra ÜƏMT-yə göndərilib, 4 əmtəə nişanı hazırda ilkin ekspertiza mərhələsindədir. Haaqa sistemi vasitəsilə sənaye nümunələrinin beynəlxalq qeydiyyatına dair 130 bildiriş sənədləri daxil olub. Onlardan 111-nin üzərində ekspertiza başa çatdırılaraq müsbət qərar qəbul edilib. İki sənaye nümunəsinin qeydiyyatına dair imtina qərarı qəbul edilərək beynəlxalq büroya göndərilib. Hazırda 17 bildiriş üzrə ekspertiza işləri davam etdirilir.

Bildirilib ki, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin 960 nömrəli "Qaynar xətt"i və ictimai əsaslarla fəaliyyət göstərən "Hüquq məsləhətxanası" ötən il ərzində müəlliflərin, digər hüquq sahiblərinin və sahibkarların istifadəsində olub, onların əqli mülkiyyət məsələləri üzrə 1500-dən çox müraciət və sorğusuna baxılıb. Qeyd olunan məsələlərin həllində, həmçinin iddia ərizələrinin tərtib edilməsində sahibkarlara köməklik göstərilib, əqli mülkiyyət, o cümlədən sənaye mülkiyyəti obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilən 21 iş üzrə 40-dan çox məhkəmə iclasında iştirak edilib, dövlət, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 20-dək ekspert rəyi hazırlanıb, maarifləndirmə tədbirləri keçirilib.